DOI: https://doi.org/10.36719/3005-3137/223-229

**Mirvari Qurbanova**
C.Naxçıvanski adına hərbi liseyin müəllimi
Bakı Dövlət Universitetinin doktorantı
https://orcid.org/0009-0008-7248-1559
mirvariqurbanova@mail.ru

# XX əsrdə Ermənistan SSR-də azərbaycanlılara qarşı həyata keçirilən etnik təmizləmə siyasətinin səbəbləri və buna təkan verən hadisələr

## Xülasə

Məqalədə Ermənistan SSR-də yerli azərbaycanlı əhaliyə qarşı həyata keçirilən etnik təmizləmə siyasətinin əsasında duran bəzi siyasi nüanslar və həmin dövrdə rəhbərliyin imzaladığı qərarlarının mahiyyəti araşdırılır. Aparılan siyasətin, qəbul olunmuş qeyri-adekvat qərarların azərbaycanlıların hüquqlarının necə əllərindən alınmasına xidmət etdiyi faktlarla göstərilir. Regionda etnik cəhətdən homogen dövlət yaratmaq üçün silsilə şəklində həyata keçirilən etnik təmizləmə siyasətinin bəzi hissələri qeyd olunub. Türksüz Ermənistan şüarı ilə mitinqlər keçirən ermənilərin güclü təşkilatçılar tərəfindən istiqamətləndirilmələrini, qarşılaşdığı çətinlikləri öncədən anlamayan, bunun olacağını düşünməyən çarəsiz azərbaycanlıların sıxışdırılmalarını və əfsuslar olsun ki, baş verənlərin işıqlandırılmasına mane olan rəhbərliyin planlarının əslində nə olduğunu anlamamaq mümkün deyil. Bütün tarixi faktlar, şahid xatirələri qatı millətçi ermənilərin aborogen əhalinin tarixi sərvətinə sahib olaraq özlərinə saxta tarix qurmalarını və bunu havadarlarının köməyi ilə dünyaya tanıtdırmaq istədiklərini açıq aşkar göstərir. Baş verənlərə etinasız yanaşan rəhbərlik yurd-yuvasından didərgin salınan günahsız millətə yardım etməyə belə çalışmırdı. Görülən bütün işlər sadəcə öz mənafelərinin qorunmasına xidmət edir, hər hansı bir etiraz olsa özlərini müdafiə edə biləcək qərarlarla kifayətlənirdilər. Hər vəchlə Türkiyə sərhəddinə sığınan, Azərbaycana üz tutan əhaliyə çətinliklər yaradılır, məhv olmaları üçün qışın soyuğunda ac-susuz yollarda çarəsiz buraxılırdı. Bu məqalədə Qərbi Azərbaycanda yaşayan azərbaycanlıların yaşadığı faciəvi taleyin səbəbləri araşdırılır, faktlarla işıqlandırılır. İllərlə gizli saxlanılan, “könüllü köçmə” adı ilə araşdırılması istənilməyən məsələnin əsl mahiyyəti aşkarlanır.

***Açar sözlər:*** *azərbaycanlıların sıxışdırılması, deportasiya, şahidlərin xatirələri*

**Mirvari Gurbanova**
*PhD student at Baku State University,*
*Teacher at the Military Lyceum named after J.Nakhchivanski*
https://orcid.org/*0009-0008-7248-1559*
mirvariqurbanova@mail.ru

# The reasons for the polıcy of ethnıc cleansıng ımplemented agaınst azerbaıjans ın the Armenıan SSR ın the 20th century and the events that gıven ıt the ımpulse

## Abstract

The article examines some of the political nuances underlying the policy of ethnic cleansing carried out against the local Azerbaijani population in the Armenian SSR, as well as the essence of the decisions signed by the leadership at that time. It demonstrates with factual evidence how the policy pursued, along with the inadequate decisions adopted, served to deprive Azerbaijanis of their rights. The study also highlights aspects of the ethnic cleansing policy that were implemented systematically to create an ethnically homogeneous state in the region. It is not difficult to discern the intentions of the Armenian organizers, who orchestrated rallies under the slogan "Armenia without Turks," and the tragic suppression of helpless Azerbaijanis who neither foresaw the difficulties ahead nor imagined such events would occur. Equally troubling were the plans of the leadership, which deliberately prevented the wider coverage and exposure of what was taking place. All historical facts and eyewitness accounts clearly demonstrate that hard-line nationalist Armenians, by appropriating the aboriginal population as part of their "historical heritage," constructed a false history for themselves and sought to present it to the world with the support of their patrons. The leadership, showing complete indifference to these events, made no attempt to assist the innocent people who were being displaced from their homeland. All the measures taken served only to safeguard their own interests, and in the event of objections, they resorted to decisions that justified and protected themselves. Severe hardships were imposed on the population that sought refuge along the Turkish border or turned to Azerbaijan for help. Many were left stranded on the roads in the bitter cold of winter, without food or water, and condemned to perish. This article explores the reasons behind the tragic fate of the Azerbaijanis of Western Azerbaijan and sheds light on the historical facts. This article examines the reasons for the tragic fate of Azerbaijanis living in Western Azerbaijan and sheds light on the facts. The true essence of the issue, which has been kept secret for years and is not wanted to be investigated under the name of

"voluntary migration", is revealed.

***Keywords**: persecution of Azerbaijanis, massacres, deportation, testimonies of witnesses*

## Giriş

Sovet İttifaqının süqutuna doğru aparan tarixi proseslər daxilində 1980-ci illərdə Ermənistan SSR ərazisində yaşayan azərbaycanlıların kütləvi deportasiyası uzun tarixi kökləri olan etnik təmizləmə siyasətinin məntiqi nəticəsi və son mərhələsi idi. Bu proses təsadüfi deyil, mərkəzi sovet rəhbərliyinin milli siyasəti, yenidənqurma (perestroyka) şəraitində əldə etdiyi fürsətdən istifadə edən erməni milliyətçi-daşnak qruplarının vəhşilikləri, Azərbaycan SSR rəhbərliyinin qeyri-qəti mövqeyinin nəticəsi idi. Təxminən 250 min azərbaycanlının tarixi vətənlərindən qovulması ilə nəticələnən bu deportasiya yalnız Ermənistan SSR-də demoqrafik vəziyyəti əsasından dəyişdirmədi, Azərbaycanın Qarabağ bölgəsində münaqişənin alovlanmasına, müharibənin başlamasına və ərazilərin Ermənistan tərəfindən işğalına gətirib çıxardı.

XX əsrin əvvəllərindən Ermənistan SSR-də azərbaycanlılara qarşı başladılan deportasiya siyasəti 1980-ci illərdə özünün son mərhələsinə qədəm qoydu. Mixail Qorbaçov başda olmaqla imperiya siyasətini ciddi-cəhdlə davam etdirən qrup Moskvada əsas postları ələ keçirdikdən sonra öz siyasi və qrup məqsədlərinə uyğun olaraq Qafqazda milli ədavəti qızışdırmağa, erməni milliyətçiliyini dəstəkləməyə başladılar. Bu zaman həyata keçirilən yenidənqurma (perestroyka) və açıqlıq (qlasnost) siyasəti Ermənistan SSR-də millətçi-şovinist qrupların təşkilatlanmasına imkan yaratdı. SSRİ Nazirlər Sovetinin 1985-ci il iyunun 20-də qəbul etdiyi qərara görə xarici ölkələrdə yaşayan ermənilərin SSRİ-yə "repatriasiyası" davam etdirilməli idi (Əhmədov. 2015, s.9). Hətta bu məsələ ilə bağlı 1986-cı ilin noyabrında Ermənistan KP MK-nın birinci katibi Karen Dəmirçiyanın özü Sov. İKP MK-ya gizli bir məktub göndərərək xarici ölkələrdə yaşayan ermənilərin gətirilməsi ilə bağlı müraciət etmişdi (Qasımlı. 2016, s.407).

### Tədqiqat

XX əsrin 80-ci illərinin ortalarından başlayaraq Ermənistan SSR-də qatı erməni millətçilərinin siyasi sərbəstliyi artdı. "Ermənistanı türklərdən təmizləməli", "Ermənistan yalnız ermənilərin yaşaması üçündür" kimi şovinist mahiyyəti kəsb edən şüarlar 1988-ci ilin fevralın 19-da İrəvanda keçirilən mitinqdə səsləndirilərək böyük əks-səda doğurdu (Гусейнова. 2005, с.109). Bu qüvvələr illərlə gizli şəkildə mövcud olan etnik təmizləmə ideyalarını, monoetnik dövlət yaratmaq xülyalarını çəkinmədən açıq şəkildə reallaşdırmağa başladılar, azərbaycanlı əhaliyə qarşı təzyiqləri gücləndirdilər. Azərbaycanda isə ermənilər vasitəsilə təxribatçı addımlar

atmağa başladılar. Qarabağda yaşayan ermənilər Moskvaya ardıcıl məktublar göndərməyə başladılar. Mixail Qorbaçov isə erməni millətçilərinin hay-küyündən Azərbaycan SSR-ə qarşı təzyiq vasitəsi kimi istifadə edirdi. 1988-ci il martın 3-də Qorbaçov Siyasi büroya bu mövzu ilə bağlı aldıqları xəbərdarlıqları görməməzlikdən gəlməyin səhv olduğunu bildirdi: *"Burada heç nəyi sadələşdirməməliyik və özümüzü də tənqid etməliyik. Mərkəzi Komitə son üç ildə Dağlıq Qarabağ məsələsi ilə bağlı beş yüz məktub aldı. Bu məsələyə kim diqqət yetirdi? Biz yalnız adi cavablar verdik"* (Waal. 2003, s.16).

Ermənistandan azərbaycanlıların tam təmizlənməsi üçün bəhanə lazım idi. 1988-ci ilin fevral ayında əvvəldən hazırlanmış ssenari əsasında millətçi ermənilər tərəfindən həyata keçirilmiş "Sumqayıt hadisələri" Ermənistan SSR-də azərbaycanlılara qarşı vəhşiliklərin törədilməsi üçün bəhanə oldu. Zəngibasar rayonunun Dəmirçi kəndində 17 iyul 1966-cı ildə anadan olmuş Mirheydərli Mirfaiq Mirabbas oğlu müsahibə götürdüyüm hadisə şahidlərindəndir. Onun söylədiklərindən məlum olur ki, Sumqayıtda erməni şovinistlərinin bilərərkdən sadə ermənilərə qarşı törətdikləri təxribatların sonra Ermənistanda yaşayan azərbaycanlılara qarşı münasibət olduqca pisləşdi. O, bu hadisələrin baş verməsi ilə İrəvandan Bakıya yaxud əks istiqamətdə hərəkət etməyin mümkünsüz bir hala çevrildiyini deyir. Yolda qarşılaşdıqları çətinlikllərdən bəzən möcüzə ilə xilas ola bilir, bəzən ciddi qarşıdurma ilə rastlaşdıqlarını qeyd edir (Mirheydərli). Bu təzyiqlərin və azərbaycanlılara qarşı vəhşiliklərin güclənməsi onların öz yurdlarından sıxışdırılaraq, qovulmasına gətirib çıxardı.

Azərbaycan SSR rəhbərliyinin atdığı addımlar isə sadəcə görüntü yaratmaq məqsədi güdürdü. 1988-ci ilin aprel ayının 13-dən 15-dək Ermənistan SSR-də yaşayan azərbaycanlıların vəziyyətini öyrənmək və onların qarşılaşdığı problemləri həll etmək məqsədilə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin katibi Ramiz Mehdiyevin başçılığı ilə İrəvana göndərilən nümayəndə heyəti faktiki olaraq heç bir ciddi dəyişikliyə nail ola bilmədi. Nümayəndə heyəti Ermənistan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi Karen Dəmirçyanla iki dəfə görüşdü. Lakin ortaya ciddi mövqeyin qoyulmaması Ermənistanın daha rahat şəkildə davranmasına səbəb oldu. Görüşlər zamanı Karen Demirçyanın azərbaycanlılara qarşı zorakılıqların dayandırılacağı və onların təhlükəsizliyinin təmin ediləcəyinə dair vədləri sadəcə protokola hesablanmış ümumi sözlər idi. Azərbaycanlı tədqiqatçı V.Ağamalıyeva yazır ki, verilən bu vədlərə baxmayaraq, azərbaycanlılara qarşı edilən zorakılıqların və onların məcburi deportasiyasının qarşısı alınmamışdı (Ağamalıyeva. 2017, s.117).

Ermənistanda mətbuat, radio və televiziya kanallarında azərbaycanlılara qarşı nifrət təbliğatı gücləndirildi. Azərbaycanlılara qarşı təzyiqlərin pik həddə çatdığı

dövrdə yerli azərbaycanlılar üçün radio, televiziya və redaksiyalarda işləmək olduqca çətinləşirdi. "Sovet Ermənistanı" qəzetinin məsul katibi olmuş Nəcəf Şabanov 2023-cü ilin mayında verdiyi müsahibədə bildirir ki, təhqirlərə dözməyən redaksiya heyəti bir-bir Bakıya köçmək məcburiyyətində qaldı, redaksiya bağlandı (Xonika).

Apardığımız araşdırmalar zamanı həmin dövrdə Ermənistan SSR-də yaşamış çoxsaylı şahid ifadələri göstərir ki, o zaman nəinki təhsil müəssisələrində, hətta digər ictimai yerlərdə də azərbaycanlılar təhqir olunur, döyülürdü. Hal-hazırda Şamaxı rayonunun Kəlləxana kəndində yaşayan, 01.09.1965 tarixində İcevan rayonunun Polad kəndində anadan olan Nəbiyev Sarvan Səftər oğlunun xatirələrinə əsasən ev-eşiyindən, torpağından məhrum edilmiş bu insanlar yeni yerlərə alışmaq və həyatlarını yenidən qurmaq məcburiyyətində qalmışdılar. 1988-ci ilin noyabr ayında erməni-rus qüvvələri Azərbaycan əhalisini avtobuslara dolduraraq onları Qazax rayonunun sərhədinə göndərmiş, həmin insanların bütün varidatı və mülkləri kəndlərində qalmışdı. Bu hadisədən dörd ay əvvəl Alacıqqaya adlı kənddə ermənilər bir qadını güllələyərək öldürmüşdülər. Əhali nə qədər şikayət etsə də, bu şikayətlərə heç kim baxmamışdı. Ermənilər əhaliyə elan edirdilər ki, müqavimət göstərib getməyən hər kəsin taleyi qadın kimi olacaqdır. Sarvan Nəbiyevin dediklərindən: "Əhalini köçürən zaman, kəndlilərdən biri, Rüstəmov Yaqub Rüstəm oğlu, digərlərindən ayrı düşmüşdü. Ermənilər onu tutaraq rayon mərkəzinə apardılar və orada onu dörd gün döyüb işgəncələr verdilər. Bir həftədən sonra rus əsgərlərinin köməyi ilə onu geri ala bildik. Lakin, o, bir həftə sonra Qazax rayonunda vəfat etdi. Həkimlər onun daxili orqanlarının zədələndiyini bildirdilər. Yaqub Rüstəmov Ağstafa rayonunda dəfn olundu" (Ağamalıyeva. 2017, s.117).

Belə şahid ifadələri yüzlərlədir və onların hər birində göstərilən motivlərin sistemli araşdırılması XX əsrin 80-ci illərinin sonlarında həyata keçirilən prosesin sistemli etnik təmizləmə olduğunu söyləməyə imkan verir. 1988-ci il dekabrın 5-də SSRİ KP MK-nın Mərkəzi Komitəsinin katibi M.Qorbaçov və SSRİ Nazirlər Sovetinin sədri N.Rıjkov tərəfindən Sovet İKP MK və SSRİ Nazirlər Soveti vətəndaşların daimi yaşayış yerlərini məcburi tərk etməsində Azərbaycan SSR və Ermənistan SSR-in yerli orqanlarının ayrı-ayrı vəzifəli şəxslərinin yolverilməz hərəkətləri haqqında qərar qəbul edildi (Правда. 1988, с.1). Lakin bu qərar da aparılan siyasətin bir qolu olaraq mürtəce xarakter daşıyırdı.

Hadisələrin sərt müstəvidə cərəyan etdiyi vaxtda Spitakda (Hamamlıda) baş verən zəlzələdə də azərbaycanlılar fəlakət nəticəsində əziyyət çəkənlərə yardım etmələrinə baxmayaraq qatı millətçi ermənilər öz məkrli planlarına davam edirdilər (Правда. 1988, с.2). Bakıdan zəlzələ bölgəsində zərərçəkənlər üçün göndərilən tibbi avadanlıq və ərzaq mallarını daşıyan İl-76 təyyarəsi də terrorçular tərəfindən qəzaya

uğradılmış, 77 nəfərlik ekipaj heyəti həlak olmuşdur. Baş vermiş bu hadisə amansız siyasətin bariz nümunəsidir ( Əroğul. 2009, s.65).

Zaman keçdikcə nəinki şovinistlər, hətta bütün ermənilər bu siyasətin iştirakçısına çevrildilər. Ermənistanın rəhbərliyi, partiya və sovet orqanları azərbaycanlıların şikayətlərinə ümumiyyətlə baxmırdı (Qasımlı. 2015, s.120). Bunu Ermənistan SSR-in azərbaycanlı vətəndaşlarının Azərbaycan SSR hakimiyyət orqanlarına göndərdiyi kömək məqsədli məktublarda da görmək mümkündür. Belə sənədlərin birində Qafan rayonunun Qacaran kənd sakini yazır: *"Axır zamanlarda DQMV ilə əlaqədar olaraq Ermənistanda yaşayan azərbaycanlıları incidirdilər. Ermənilər açıq-aşkar ata-anamı təhqir edirlər və işdən çıxıb getmələrini tələb edirlər. Hər gün hədələyirlər və deyirlər ki, getməsəniz sizinlə ayrı yolla hesabalaşacağıq"* (Azərbaycan Respublikası Dövlət Arxivi).

## Nəticə

Yuxarıda aparılan təhlillər nəticəsində bir sıra qənaətlərə gəlmək mümkündür. Əvvəla aydın olur ki, etnik təmizləmə prosesinə Moskvanın mərkəzi rəhbərliyinin, xüsusilə Mixail Qorbaçovun erməni milliyətçilərinin tələblərindən Azərbaycana təzyiq vasitəsi kimi istifadə etmək siyasəti və problemə qeyri-obyektiv yanaşması etnik təmizləmə prosesi üçün əlverişli şərait yaratmışdır. İkincisi, perestroyka ilə əlaqədar yaranmış nisbi siyasi azadlıq mühiti, Ermənistanda monoetnik dövlət xülyası quran radikal milliyətçi qrupların fəaliyyətini aktivləşdirmiş və onlara azərbaycanlılara qarşı nifrət təbliğatını genişləndirməyə imkan vermişdir. Üçüncüsü, süni şəkildə yaradılan və provokasiya xarakteri daşıyan Sumqayıt hadisələri kimi bəhanələrdən istifadə edərək, azərbaycanlı əhaliyə qarşı sistematik zorakılıq, təhqir və hədələr tətbiq edilmişdi. Dördüncüsü, Azərbaycan SSR rəhbərliyinin mövqeyinin qeyri-qəti və səmərəsiz olması, Ermənistan tərəfindən verilən vədlərin pozulmasına və deportasiya prosesinin qarşısının alınmamasına səbəb olmuşdu.

Nəticədə, azərbaycanlı əhali öz ata-baba yurdlarından qovulmuş, onların maddi-mədəni irsi məhv edilmiş, ələ keçirilmiş, toponimlər dəyişdirilmişdi. Bu, yalnız bir etnik qrupa qarşı tətbiq edilmiş insanlıq əleyhinə cinayət deyil, həm də regional sabitliyi pozan, minlərlə insanın taleyini dəyişdirən və iki qonşu xalq arasında dərin uçurum yaradan faciəli bir proses olmuşdu.

## Ədəbiyyat

1. Əhmədov, E.İ. Ermənistanın Azərbaycana təcavüzü: beynəlxalq təşkilatların və böyük dövlətlərin siyasəti / –Bakı: Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu, 2015.

2. Qasımlı, M. Ermənistanın sovetləşməsindən Azərbaycan ərazilərinin işğalınadək erməni iddiaları: tarix olduğu kimi (1920-1994-cü illər) / -Bakı: Mütərcim, 2016.

3. Гусейнова, И. Гейдар Алиев - от политического руководителя к общенациональному лидеру / И.Гусейнова. – Баку: Тахсил, -2005.

4. Waal, T. Black garden. Armenia and Azerbaijan through Peace and War / T.De Waal. -New York & London: New York University Press , -2003.

5. Zəngibasar rayonunun Dəmirçi kəndində 17.07.1966 tarixində anadan olmuş Mirfaiq Mirabbas oğlu Mirheydərlinin verdiyi məlumat.

6. Ağamalıyeva, V. Qərbi Azərbaycanda ermənilərin törətdiyi vəhşiliklər / – Bakı: SkyG, –2017.

7. Baş redaktorun müəmmalı cinayətinin detalları üzə çıxdı: [Video] // Qərbi Azərbaycan Xronikası, -25 iyul, 2023. URL: https://youtu.be/FVPBCdJX84E?si=kgIIN6N0IwI_mZEq

8. Ağamalıyeva, V. Qərbi Azərbaycanda ermənilərin törətdiyi vəhşiliklər / – Bakı: SkyG, –2017.

9. Постановление ЦК КПСС и Совета Министров СССР от 5 декабря 1988 года О грубейших нарушениях конституционных прав граждан в Азербайджанской ССР и Армянской ССР // Правда, 6 декабр, 1988.

10. Интервью М.С.Горбачева корреспандентам Центрального телевидения и телевидения Армении // Правда, 12 декабр, -1988.

11. Əroğul, Əlisahib. Azərbaycanda erməni-daşnak terrorunun xronologiyasi (bədii, tarixi publisistika) / Ə.Əroğul. –Bakı:Təknur, -2009.

12. Qasımlı, M.C. Azərbaycan Respublikasının xarici siyasəti (1991-2003): [2 hissə ] / M.C.Qasımlı. - Bakı: Mütərcim, h. I, -2015.

13. Azərbaycan SSR Nazirlər Soveti Sədrinin birinci müavini Salam Musa oğlu Məmmədova Qaradağ rayonunun Sahil qəsəbəsində yaşayan Əhmədov Yaşar Cəlal oğlu tərəfindən ünvanlanmış ərizə (Ermənistan SSR-dən məcburi köçükün düşmüş azərbaycanlılar barədə sənədlər (ərizələr, şikayətlər) // Azərbaycan Respublikası Dövlət Arxivi, Fond 411, Siyahı 55, iş 17. – vərəq 273. – v. 30.

**Daxil olma tarixi: 23.08.25**
**Qəbul tarixi: 12.10.25**